Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Prezident Əliyevin telemüsahibə ideyaları səmərəsiz Minsk Qrupunun tərkibində dəyişiklik müzakirələrinə motiv verdi...

**Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində atılan addımlar Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən artıq tam şəkildə dalana dirənmiş bir vəziyyətə düşüb. Problemin bu həddə gəlib çıxmasının ümdə səbəblərindən biri isə həm də münaqişənin həllində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin öz vəzifələrinin öhdəsindən layiqincə gələ bilməməsidir.**

Ümumiyyətlə, birmənalı həqiqətdir ki, beynəlxalq qurumlar, xüsusən də ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistanın illərdir Azərbaycan torpaqlarını işğal altında saxlamasına görə məsuliyyət daşıyan tərəflər sırasında yer alır. Ən azı o baxımdan ki, bu vaxta qədər işğalçıya qarşı sərt tədbirlər görməyiblər, sanksiyalar tətbiq etməyiblər. Elə bu da işğal siyasətinin davam etməsinə rəvac verib. Qeyd edək ki, yerli telekanallara müsahibəsində Prezident İlham Əliyev də bu fonda Minsk Qrupunun fəaliyyətini sərt tənqid hədəfinə çevirdi. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin son görüşündən sonra verilən bəyanata toxunan dövlət başçısı qeyd etdi:"O ki qaldı, Minsk Qrupunun bəyanatına, biz bunlardan başqa bəyanatlar, konkret bəyanatlar gözləyirik və onu eşitmək istəyirik. Ermənistanın baş naziri deyir "Qarabağ Ermənistandır". Buna mən cavab verirəm və lazımi cavab verirəm. Amma Minsk Qrupu niyə buna cavab vermir? Niyə cavab vermir ki, bu ifadə, əslində Minsk Qrupunun formalaşdırdığı danışıqların mahiyyətini alt-üst edir, danışıqları faktiki olaraq əhəmiyyətsiz edir. Minsk Qrupunun həmsədrləri buna adekvat reaksiya veriblər? Verməyiblər! Ermənistan tərəfi iki ildir danışıqların formatını dəyişmək istəyir və bəyan edir ki, Azərbaycan qondarma Dağlıq Qarabağın qondarma, saxta, dırnaqarası liderləri ilə danışıqlar aparmalıdır. Buna adekvat cavab verilir? Verilmir! Bəli, bəzi mücərrəd sözlərlə, nala-mıxa vurmaqla cavab verilir. Axı, o dövr keçibdir. Biz aydınlıq tələb edirik".

Artıq faktdır ki, uzun illərdir Azərbaycan cəmiyyətində Minsk Qrupunun həmsədrlərinə qarşı inamsızlıq hökm sürür. Çünki son dövrlərə qədər vasitəçilərin əsas işi ildə bir neçə dəfə bölgəyə səfərə gəlmək, iki ölkənin xarici işlər nazirlərinin görüşünü təşkil etmək, sonda da hansısa şablon bəyanat verməkdən o tərəfə keçməyib. Bu mənada təsadüfi deyil ki, Azərbaycanda əksəriyyət həmsədrlərin bu səfərlərinə turist gəzintisi kimi baxırdı. Artıq bir neçə aydır onlar bölgəyə gələ bilmirlər, çünki koronavirus pandemiyası buna imkan vermir, sərhədlər bağlıdır. Yəni onların öz fəaliyyətsizliklərini səfərlərlə ört-basdır etmək varinatı alınmır. Belə bir vəziyyətdə onlar Azərbaycan və Ermənistan XİN başçılarının videokonfrans formatında görüşünü təşkil edirlər. İndi haqlı sual yaranır ki, əgər Ermənistan rəhbərliyi ilə uzun illərdir üzbəüz aparılan müzakirələr bir nəticə verməyibsə, videokonfrans vasitəsilə nəyəsə nail olmaq mümkündürmü? Rəsmi İrəvanın indiyə qədər tutduğu qeyri-konstruktiv mövqeyə belə videokonfrans vasitəsilə hansısa formada təsir göstərmək çətin baş tutsun. Yəni həmsədrlərin videokonfrans formatında danışıqların aparılması ilə bağlı təklifi gözdən pərdə asmaqdan, guya münaqişənin həllinə çalışmaları görüntüsü yaratmaqdan başqa bir şey deyil. Azərbaycan da bununla razılaşmaq niyyətində deyil. Məhz bu vəziyyətdə Qarabağ məsələsinin dinc yolla həll imkanları da tam tükənmiş vəziyyətə gəlir. Politoloq Qabil Hüseynli belə bir məqama diqqət çəkir ki, artıq Minsk Qrupunun bu fəaliyyətsizliyi üzündən danışıqlar prosesinin sonu çata bilər:"Danışıqlar prosesinin süni şəkildə uzadılması, status-kvonun saxlanması bizim üçün qəbuledilməzdir. Təsadüfi deyil ki, ölkə başçısı nitqi zamanı bu mövzuya bir daha toxundu. Onun "Minsk Qrupundan konkret bəyanatlar gözləyirik" sözləri danışıqlar prosesinin hər an bitə biləcəyini göstərir".

O bildirib ki, Prezident müsahibəsində, həmçinin, Dağlıq Qarabağ münaqişəsi çərçivəsində baş verən proseslər ətrafında sualları cavablandırdı:"Bildiyimiz kimi, Azərbaycan işğala, soyqırıma məruz qalmış bir ölkədir. Bununla belə, heç zaman torpaqlarımızın qan bahasına geri qaytarılmasının tərəfdarı olmamışıq. Ona görə yox ki, biz zəif, ya da acizik. Əksinə, Azərbaycan ordusu Cənubi Qafqazın ən güclü ordusudur. Lakin münaqişənin həlli yönündə gedən sözdə danışıqlar prosesi vaxtı uzatmaqdan başqa bir məqsəd güdmür. Prezidentin həm ona ünvanlanan suallar, həm də çıxışı zamanı bu mövzuya toxunması onun mövcud vəziyyətdən narazı olduğuna dəlalət edir. Məsələ ondadır ki, ölkə başçısı "bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz" sözləri ilə hələ də danışıqlar prosesində maraqlı olduğunu bariz şəkildə bildirir. Lakin Prezidentin danışıqlar prosesinin hazırkı vəziyyətindən narazı olduğu da bəllidir. Bu isə müharibə variantının hər zaman aktual olduğunu göstərir". Politoloq qeyd edib ki, Ermənistanın işğalçı mövqeyi təkcə siyasi sferada deyil, humanitar sahədə də özünü göstərir:"Əslində, Ermənistanın düşmənçilik siyasətini bu dərəcədə qabarıq formada göstərməsi bizim maraqlarımıza uyğundur. Düşünün, prezidentin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə səs verən yeganə ölkə Ermənistan idi. Bu çox gülünc bir haldır. Bunun səbəbini isə ötən gün ölkə başçısı bir sözlə ifadə etdi: azərbaycanafobiya". Təbii ki, bu durumda ya Minsk Qrupu konkret mövqe sərgiləyib hərəkətə keçməli, ya da Qarabağ məsələsinin hərbi yoldan başqa çözüm variantının yoxluğunu qəbul etməlidir.

Qeyd olunan xüsusda digər maraqlı məqam Minsk Qrupunun tərkibində, formatında dəyişiklik edib onu konkret fəaliyyətə sövq etməkdir. Bu xüsusda Azərbaycanın Avronest Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, deputat Azər Kərimli maraqlı məqamlara toxunur. Deputatın sözlərinə görə, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistanın danışıqlar prosesinin pozulmasına yönəlmiş təxribat xarakterli addımlarına münasibətdə, nəinki beynəlxalq təzyiq mexanizmlərinin hərəkətə gətirilməsinə səy göstərir, hətta işğalçı ölkənin əməllərini pisləməkdən belə çəkinirlər:"Cənab prezidentin qeyd elədiyi kimi, Azərbaycan ATƏT-in Minsk Qrupunun həmsədrlərindən daha ciddi, konkret və məqsədə ünvanlanmış bəyanatlar gözləyir. Amma təcrübədə biz bunun əksini görürük, həmsədrlər Ermənistanın iddialarına bəzi mücərrəd sözlərlə, nala-mıxa vurmaqla cavab verirlər". Azər Kərimli qeyd edib ki, bütün digər beynəlxalq təsisatlarda olduğu kimi, ATƏT-in Minsk Qrupunda da həmsədr ölkələr rotasiya qaydasında dəyişməlidir:"Necə olur ki, ATƏT-in özündə bu təşkilata sədrlik edən ölkələr rotasiya qaydasında dəyişirlər, amma bu təşkilatın təsisatı olan Minsk Qrupunda həmsədr ölkələr olduğu kimi qalır və heç vaxt əvəz olunmurlar?". Parlamentari həmsədrlər, münaqişə tərəfləri ilə yanaşı, İtaliya, Türkiyə, Almaniya, Belarus, Niderland, Portuqaliya, Finlandiya kimi ölkələrin təmsil olunduğunu da xatırladıb:"Məsələn, həmsədrlik insitutunda Avropa Birliyini təmsil edən Fransanı rotasiya qaydasında İtaliya əvəz edə bilər. Digər həmsədrlərin də rotasiya qaydasında dəyişdirilməsi vacibdir". Digər ekspertlər tərəfindən də fikirlər səslənir ki, bu halda həqiqətən də Minsk Qrupunun fəaliyyətində hansısa yenilik müşahidə etmək olar.

Digər tərəfdən, hələ 1994-cü ildə atəşkəslə bağlı razılıq əldə edilərkən əsas şərtlərdən biri də o idi ki, Minsk Qrupu sülh yolu ilə problemin həllini həyata keçirməlidir. Amma ötən dövr qrupun bu istiqamətdə fəaliyyətinin fiaskoya uğradığını üzə çıxardı. Belə vəziyyətdə Minsk Qrupu ya bu problemi sülh yolu ilə həll etməlidir, ya da Azərbaycan ərazi bütövlüyünü bərpa etmək üçün digər variantlara, o cümlədən güc amilinə əl atmalıdır. Ona görə də ölkə başçısı yuxarıda qeyd edilən müsahibəsində bir daha aprel döyüşlərini xatırlatmaqla milli ordumuzun nəyə qadir olduğunu yada salmış oldu. Bu xüsusda prezident bildirdi:"Biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında. Aprel döyüşləri heç kimin yadından çıxmasın!". Bu təkcə Ermənistana yox, onun havadarlarına, eləcə də Minsk Qrupuna ünvanlanmış mesajdır. Məhz bu halda Minsk Qrupu ya vəziyyət daha da gərginləşmədən öz missiyasını yerinə yetirməklə bağlı konkret addımlar atmalı, ya da prosesdən çəkilməlidir. Burada vasitəçilər əslində yaxşı görür ki, Azərbaycan danışıqlar formatına sadiqdir, prosesin mahiyyətinə istinad edir.

Ermənistan rəhbərliyinin fəaliyyəti və açıqlamaları isə danışıqların mahiyyəti ilə ziddiyyət təşkil edir.Bu hal Minsk Qrupunun öz imicinə də ciddi xələl gətirir. Ən azı o baxımdan Minsk Qrupunun Ermənistana qarşı konkret addımlar atması zərurətdir. Amma qurum heç öz imici xatirinə də hansısa addım atmır. Belə olan halda, təbii ki, işğalçının təxribatçı davranışları intensiv xarakter alır. Nəticə etibarı ilə danışıqlarda durğunluq müşahidə olunur. Bakı bununla razılaşmayaraq bildirir ki, artıq danışıqlar masasında təcavüzkarla işğala məruz qalan arasında fərq qoyulmalı, status-kvonun dəyişdirilməsinə xidmət edən addımlar atılmalıdır. Ya bu yolla münaqişənin həllində pozitiv dinamika yaradılmalı, ya da Azərbaycan ordusu vasitəsilə ərazi bütövlüyünü bərpa etməlidir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**